*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 120-130* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.120*

# Bəxtiyar Vahabzadə poeziyasında dini-irfani ovqat və vəhdəti-vücud elementləri

**Sezər Məmmədli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, doktorant
E-mail: sezarmammadli@gmail.com

**Annotasiya.** Azərbaycan ədəbiyyatının, eləcə də ictimai fikir tarixinin ən görkəmli simalarından olan Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyu özünüdərk, mənəvi yüksəliş anlayışlarına böyük önəm vermiş, hətta qeyd etdiyimiz məsələlər ustad şairin poeziyasında istiqlal və milli kimlik dəyərləri ilə birgə əsas istiqamət kimi çıxış etmişdir. Bu məqalədə məqsədimiz ustad şairin poeziyasındakı vəhdəti-vücud elementlərini, özünüdərkin hansı mahiyyətlə ifadə olunmasını araşdıraraq, mənəvi kamilliyin önəminin Bəxtiyar müəllimin düşüncə üfüqləri prizmasından tədqiqidir. Şairin bütün yaradıcılığı boyu özünüdərk yollarında axtarışlar müşahidə olunur. Bu tendensiya xüsusən müstəqillik dövrü poeziyasında daha aydın surətdə meydana çıxır. Əsərlərindəki lirik qəhrəmanlar daim özünüdərk yollarında irəliləyiş, həqiqət axtarışındadırlar. Məqalədə həmin yollarda şairin təlatümləri və lirik qəhrəmanının mənəvi təkamülü fonunda özünün dinə, təsəvvüfə və vəhdəti-vücud anlayışına baxışları göstərilir. İnsanın tənqidi və ikili xarakteri də Bəxtiyar müəllimin yaradıcılığında mühüm əhəmiyyət kəsb edir. Fani dünyaya aldanıb nəfsinin qulu olan insan ciddi mühakimə olunur. Digər tərəfdən, mənəvi dünyaya yönələn, eşq mərtəbələrində yüksələn də insandır. İnsan xislətinin bu qarşıdurmada təqdimi ustad şairin bəşər övladı haqqında görüşlərinin əsas istiqamətini təşkil edir. Təsəvvüfün, vəhdəti-vücudun elementləri Bəxtiyar Vahabzadənin dini baxışlarında zaman-zaman alt qatda, ümumilikdə isə aydın şəkildə görünür. Varlıq və yoxluq barədə təsəvvüfi fikirləri onun poetik irsində vəhdəti-vücud ideyasının metafizik aspektdən dəyərli ifadəsidir.
**Açar sözlər:** Bəxtiyar Vahabzadə, vəhdəti-vücud, din, təsəvvüf, sufizm, poeziya

**Məqalə tarixçəsi:** göndərilib – 06.09.2024; qəbul edilib – 20.09.2024

# Religious and spiritual ideas and elements of unity of existence in Bakhtiyar Vahabzade's poetry

**Sezar Mammadli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS, Doctoral Student
E-mail: sezarmammadli@gmail.com

**Abstract.** Bakhtiyar Vahabzade, one of the most prominent figures in the history of Azerbaijani literature as well as public thought, attached great importance to the concepts of self-awareness and spiritual growth throughout his work. The issues mentioned by us have also acted as the main direction in the poetry of the master poet, alongside the values of independence and national identity. Our goal in this article is to study the essence of self-awareness in the poetry of the master poet and the importance of spiritual perfection through the prism of the horizons of thought of

Bakhtiyar teacher. Throughout his entire work, the search for self-awareness is evident. This trend is especially noticeable in the poetry of the independence period. The lyrical heroes in his works are constantly in search for progress and truth on the paths of self-awareness. The article presents his views on religion, Sufism, and the concept of the unity of existence against the background of the poet's vicissitudes and the spiritual evolution of his lyrical hero. The critical and dual character of a person is also of great importance in the work of Bakhtiyar teacher. A person deceived by the mortal world and enslaved by his weaknesses is subjected to harsh condemnation. On the other hand, thanks to divine love, a person is also able to incline toward the spiritual world. The presentation of this human trait in this confrontation forms the main direction of the master poet's views on the human race. The elements of Sufism and the unity of existence are clearly visible in Bakhtiyar Vahabzadeh's religious views, both in the deeper layers and in the whole. His ideas about being and non-being are a valuable expression of the idea of the unity of existence in his poetic heritage from a metaphysical point of view.
**Keywords:** Bakhtiyar Vahabzadeh, unity of existence, religion, tasavvuf, sufism, poetry

**Article history:** received – 06.09.2024; accepted − 20.09.2024

## Giriş / *Introduction*

Ədəbiyyatımızda hər zaman öz dəst-xəti ilə seçilən istiqlal şairimiz Bəxtiyar Vahabzadənin yaradıcılığında özünüdərk məfhumu əhəmiyyətli yerə malikdir. Bunu şairimizin həm sovet dövründə klassik ədəbiyyatımıza, orta əsrlərdə yazıb-yaratmış sənətkarlarımıza münasibətində, həm də ölkəmizin müstəqilliyini bərpa etməsindən sonrakı yaradıcılığında müşahidə etmək olar. Onun poeziyasına diqqət yetirəndə görürük ki, demək olar, bütün dövrlərdə şair bu prinsipi əsas tutur. Əsərlərindəki lirik qəhrəmanlar daim özünüdərk yollarında irəliləyiş, həqiqət axtarışındadırlar. Bu tip axtarış kompleks şəkildə Bəxtiyar Vahabzadənin yaradıcılığının bütün qatlarında özünü göstərir. O, mənəviyyat adamıdır. Şairlik özü Allahdan gələn mənəvi keyfiyyətdir, vergidir. Əsl şair dayazda görünməməli, idealını dərinlərdə aramalıdır.

*“Şairin bütün şeirlərində alt qat, mahiyyət olmuşdur ki, ədəbi-tənqid bunu “ikinci səs” adlandırmışdır.”* [1, s.83] Bəxtiyar müəllim də elə bu zərurətdən zahirdən batinə doğru səfərə çıxır. Ən böyük dərinlik isə, şübhəsiz, dində təzahür edir. Şairin poetik irsində dinlə bağlı məqamlar aydın şəkildə görünür.

## Əsas hissə / *Main part*

Müstəqillik dövrü ədəbiyyatımız da daxil olmaqla bütün sahələrdə yeni və azad yanaşmalara geniş imkanlar yaradırdı. Şairlərimiz, tədqiqatçılarımız üçün azad özünüifadə fürsəti, tədqiqatlar üçün münbit şərait və.s bu müqəddəs məfhumun gətirdiyi nemətlər idi. Lakin Bəxtiyar Vahabzadə üçün sadaladığımız anlayışlar yeni deyildi, çünki o, tariximizin ən keşməkeşli vaxtlarında belə ədəbi-mədəni irsimizi sevərək tədqiq etmiş, ədəbi camiədə yeni üfüqlər açmışdır. Sovet dönəmində Nəsimi, Füzuli haqqında söz demiş, təsəvvüf, vəhdəti-vücud anlayışları ilə bağlı mövqeyini bildirmişdir. Hələ o dövrlərdən bəri rahatlıqla deyə bilərik ki, təsəvvüf, vəhdəti-vücud şairimizin dərin marağına səbəb olmuşdur, hətta bununla kifayətlənməmiş, Bəxtiyar müəllimin batininə yol tapmışdır. Düşünürük ki, şairimizdəki güclü mənəvi özünüdərk meyli bu prosesə təkan verən əsas amil olub. “Allahu-Əkbər” sözünü bütün yaradıcılığına, eləcə də həyatına şüar edən şair hər misrasını bu qanunauyğunluq əsasında qələmə almışdır. Onun yaradıcılığını İslam dinindən kənarda təhlil etmək mümkünsüzdür. Təsəvvüflə, vəhdəti-vücudla bağlı yanaşmaları da təbii olaraq şairin

dinə münasibətinin fonunda diqqətə alınır. Bəxtiyar Vahabzadənin poeziyasında dini motivlər səthi diqtələr şəklində yox, şairimizin İslam dininə səmimi duyğuları, dərin inancı və bu dinin gözəlliklərini anlatmaq müstəvisində özünü göstərir:

*“Din – Allah yoludur, Allaha çatmaq*
*Özün de, mümkünmü dindən küsəndə?”* [4, s.392]

Cəmiyyətdə din və etiqad azadlığını qəbul edən şair əsas etibarilə millətimizin genetik kodlarına hopan türk-müsəlman kimliyinin müdafiəçisidir. Bəxtiyar Vahabzadənin yaradıcılığında ən aparıcı yeri, fikrimizcə, eşq tutur. Bu bəzən birbaşa Allaha, bəzən vətənə sevgi ilə, eşqlə təzahür edir. Düşünürük ki, şairliyin özü eşqə qapıdır. Qəlbi İlahi nurdan məhrum insanlar şair olmaz, sadəcə Mirzə Fətəli Axundzadənin dediyi kimi “qafiyəpərdaz” ola bilər. Şairliyin, yazarlığın öz missiyası var. Bəxtiyar müəllim də bu missiyadan xəbərdar idi. Şairimiz içində olduğu cəmiyyətin hətta bəşəriyyətin problemlərini, vətənin dərdlərini öz ruhunda hiss edən el oğlu idi. Tədqiqatla məşğul olduqca məlum olur ki, Bəxtiyar müəllim daim axtarışdadır. Bu axtarışlar yaradılışı dərk etməyə, insanın dünyadakı görəvlərini qavramağa yönəlir. Bəşəriyyətin, insanın dərdləri onu daim düşünməyə vadar edir. İnsanın Allaha olan sevgisi şairimizi dərindən maraqlandırmışdır. Bu axtarışlardan qaynaqlanan suallara cavab tapmaq üçün batinə doğru səyahət edən Bəxtiyar Vahabzadənin şeirinin ahəngi insanın qəlbindən xəbər verir. Şairimizin hər dərddə pənah yeri Allahın dərgahıdır. Yolu Uca Yaradanın müqəddəs dinidir. “Bizə zülmətdə işıq yenə vallah din olur” deyən şair üçün din bütün çətinliklərdən çıxış yolu, səadətin açarıdır. Buna görə də dərdlərinə çarəni Rəbbinə sığınmaqda tapır:

*“Səndən umuram, ummuşam hər dərdimə çarə,*
*Bu xisləti mən borcluyam öz zatıma yarəb.”* [5, s.523].

Şair burada “öz zatıma” deyərkən insanın mahiyyətinə eyham edir, yaşının və yaradıcılığının yeni mərhələsində “iki cahan”ı özlüyündə daha dərin dərk edir, varlığında “mən” və Yaradanı görür, çarəni də “mən”i Yaradandan istəyir. Qədər-qismətinə daim şükür edən şair Bəxtiyarlığının Allahdan gəldiyini deyib, Ondan adı ilə taleyinin uyğun olmasını diləyir. Həm nikbin, həm kədərli vaxtlarında üzünü Yaradana tutur. 1997-ci ildə səhhətində problemlər olduğu zamanlarda bu şeiri qələmə alır:

*“Yol məni aparır yalnız dərgaha,*
*Çoxdan başlanıbdır ruhani dünya.”* [5, s.400]

Sanki şair Allah və özü arasındakı hicabların qalxmasına, Ondan gəlib Ona doğru getməsinə vurğu edir. İlk baxışdan sonuncu misranın fiziki və mənəvi yorğunluğun fonunda qələmə alındığı görünsə də geniş mənada Bəxtiyar müəllimin ruhani dünyası həqiqətən də çoxdan başlamışdı. İki dünya, axirət dünyası, ilahi başlanğıc anlayışları yaradıcılığının ilk illərindən bəri onu məşğul edən məsələlər idi. Mənəviyyat adamları bu dünyanın faniliyini heç vaxt yaddan çıxarmır. Axirət dünyasını xatırlayaraq özlərini bir növ yanlış əməllərdən qoruyurlar:

*“Hər gecənin içində*
*Səhərə imza da var*
*Əgər bu dünya varsa*
*Yəqin, o dünya da var.”* [6, s.446]

Hər insanın içində Yaradanına sığınma özülü var. Bu sığınma insan mənəviyyatının və ümumilikdə insan məhfumunun ən təbii və saf müdafiə mexanizmidir, çünki o yaradılmış bir varlıq kimi Allaha möhtacdır. Bu həqiqəti dərk edən bəni-adəm, sözsüz ki, nicat yolunun nədə olduğunu fəhm edə bilir. Bu bir növ aydınlanma kimi də qavranıla bilər. Elə təsəvvüfün əsasında duran məqamlardan biri də, fikrimizcə, budur. İnsanın Allah qüdrətini bütün varlığıyla duymağa can atması, qəlbinin və ona verilən bütün duyum yollarının vasitəsi ilə həqiqəti yaşama və bunu hiss etmə, bütün yaşamına sabitləmə cəhdidir. Allah eşqi elə bir qüvvədir ki, insanın əsl yaradılış mahiyyətini üzə çıxarır, ona bu dünyadakı missiyalarını göstərir. Fikrimizcə, bunu duymuş, anlamış insanda, həm bu dünyanın, həm də o biri dünyanın qədrini bilməyə şövq yaranır. Əsl həyatın digər dünyada olduğu, bu dünyanın isə sınaqlardan ibarət olması onun üçün aydınlaşır.

*“Əvvəlini bildiyim uzun bir səfərdəyəm,*
*Özüm özüm üçün də gizlicə bir pərdəyəm.*
*Yolun başlanğıcından yolun sonu görünmür.*
*Allahım, qullarına bəxş etdiyin bir ömür*
*İki dünya arası gedən dolama yoldur.*
*Yarəb, ilahi nurla mənim qəlbimi doldur,*
*Yoxsa, gündüzlərim də qaranlığa bürünər,*
*Bu dünya başdan-başa mənə zülmət görünər” [ 6, s.267].*

Bəxtiyar Vahabzadə bu şeirində insanın gizli xəzinə olmasına işarə edir. Bu müəyyən mənada Nəsimi yaradıcılığındakı “küntə kənzəm” anlayışını xatırladır. İnsanın dünyaya gəlməsi, yəni yolun başlanğıcından onun taleyi, həyatda hansı mövqeyi tutacağı, içindəki ikilikdən hansına meyillənəcəyi ölümlülər üçün məlum deyil. Bütün insanların həyat yolu lövhi-məhfuzda yazılıdır. O sirrə çatmağa insanın gücü yetməz. Çünki həmin qüdrət yalnız Allaha məxsusdur. Müqəddəs kitabımız Qurani-Kərimdə deyilir: “Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O (Allah) bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!” [10] Şair bir həqiqəti də yaddan çıxarmır: İnsanın bu dünyadakı əməlləri onun aqibəti ilə əlaqəlidir: “Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır)” [11] “Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)” [12].

Poetik irsindən görünür ki, Bəxtiyar Vahabzadə dini normalara həmişə diqqət yetirmişdir. Bu keyfiyyətlər də şairimizin yaradıcılığına fövqəltəbii qüvvət vermişdir. Allah sevgisi onun şeirlərində güclü şəkildə hiss olunur. Şair iki güclü duyğu – qorxu və sevgini müqayisə edərək bu anlayışların həyatındakı təsirini ortaya qoyur. Körpəlikdən gələn ilkin qorxulardan daha böyük və zəruri qorxuya diqqət çəkir. İnsana uşaqlıqdan təlqin olunan süni qorxulardansa Yaradandan qorxmağı üstün tutur. Allah qorxusu ən gərəkli qorxudur:

*“Anladım, gərəkmiş Allah qorxusu*
*İnsanı pis yoldan çəkindirməyə.*
*Amma bilirəm ki, çox-çox azdı bu*
*Könül gözü ilə haqqı görməyə”* [5, s.446].

Bəxtiyar müəllim Allah qorxusunun əhəmiyyətinə diqqət çəkərək insanın pis əməllərdən, yanlış yollardan çəkinməsi üçün bunun vacib olduğunu göstərir. Lakin haqqı görməyə, Allahın qüdrətini dərk etməyə bu da yetərli deyil. Qorxudan doğan sevgidənsə, sevgidən gələn qorxunu daha məqbul hesab edir.

*"Qorxuyla yaşamaq – ölümdən betər,*
*Sevgiylə yaşamaq – haqqa ucalmaq.*
*İndi düşünürəm: - qorxular yetər*
*Mən qadir Allahı sevirəm ancaq"* [5, s.447].

Ömür yolunda qorxudan sevgiyə keçidin zərurətini göstərən şairə görə, Allahı sevməyin yolu qorxudan arınıb sevgiyə sarılmaqdan keçir. Bu keçid Zahid və Rind qarşıdurmasını xatırladır və şairin Allaha eşqdə mövqeyini rindlə yaxınlaşdırır. O, sevgiylə yaşamağı Haqqa ucalmaq kimi görür. Sevgi könüllərdə əbədi şölədir. İnsan bu şölənin işığı ilə Haqqa doğru yol gedə bilər və bu yolun dönülməzliyini dərk edər. Yaradanını dərk etmək yolunda mühüm olan bu keçidi, yəni qorxudan sevgiyə keçidi anlamaq və həmin ülviyyətə çatmaq üçün din gərəkdir. Din insanları mənəvi paklığa aparan müqəddəs yoldur. Bu fikir şairimizin poeziyasında öz təsdiqini belə tapır:

*"Dinim, imanım haqqa yetirsin məni, yarəb,*
*Allahını idrak üçün hər kəs dinə möhtac"* [5, s.518].

İnsanın bu möhtaclığı özü bir ucalıqdır, çünki bəndə Yaradana möhtaclığını dərk edərək, bunu hər addımında xatırlayaraq daha da ucalır. Mənəvi mərtəbəsi eşq yolunda yüksəlir. Möhtaclıq özü də insan tərəfindən dərkini gözləyən anlayışdır. Allahın qüdrətini dərk edib, yalnız Ona möhtac olduğunu görən insan bütün nəfsaniliklərdən uzaqlaşmaq istəyir. Beləcə bəndənin daxilində kamilləşmə prosesi gedir. Allah qarşısında borc ödəməkdən savab bir əməl görməyən Bəxtiyar Vahabzadə insanın Yaradan qarşısında borclu olmasını daim xatırlayır və xatırladır. Şairimiz insanların naqis xüsusiyyətlərinə də diqqət çəkir. Onun şeirlərində insanı mühakimə etmək, ona öz borcunu yada salmaq motivi tez-tez rast gəlinir:

*"Vallah, qaçaq düşüb həqiqət bizdən,*
*Kim deyir sözümüz haqqa tən gəlir?*
*Sanırıq, yaxşılıq əməlimizdən,*
*Amma yamanlıqlar Allahdan gəlir"* [5, s.102].

Bəxtiyar müəllim göstərir ki, başımıza gələn müsibətlərin səbəbi sözümüzün, əməlimizin Haqq yoluna uyğun gəlməməsidir. İnsan zəifdir, zaman-zaman onu ən doğru yoldan azdıran işlərə qurşanır. Xoş günlərdə, bir fayda əldə etdikdə tez Yaradanı unudub qürrələnir, şükürü yaddan çıxarırıq. Bir balaca çətinliyə düşən kimi isə Allaha üz tutub fəryad edirik. Müqəddəs Qurani-Kərimin ən-Nəhl surəsinin 53, 54 və 55-ci ayələrində deyilir: *"Sizə gələn hər bir nemət Allahdandır. Sonra sizə bir müsibət üz verdikdə Ona yalvarıb-yaxarırsınız! Sonra sizi o müsibətdən qurtardığı zaman bir də görürsən ki, aranızda bir dəstə Rəbbinə şərik qoşur. Onlar bunu özlərinə verdiyimiz nemətlərə nankorluq etmək üçün edirlər. Hələ ki (dünyada) kef çəkib ləzzət alın. (Başınıza gələcək müsibəti) sonra biləcəksiniz!"* [9]

Şairimizin yaradıcılığı İslam dinindən gələn mənəvi-əxlaqi dəyərləri təcəssüm etdirir. İnsanı daim özünə verilən nemətlərə, əməllərini düzəltmək üçün verilən hər imkana şükür etməyə çağırır.

*"Bir bax, açılan sübh, qızaran dan, doğulan gün*
*Bir töhfəsidir Allahın insanlara hər gün.*
*Min töhfə umub aldığı bir töhfədən insan*
*Neyçün bu gözəlliklərə heç olmadı şükran?"* [5, s.65]

Şükür Bəxtiyar Vahabzadə poeziyasında Allaha eşqdə ən vacib ünsürlərdəndir. Şair insanları şükürə səsləyir. Açılan hər yeni günün, hər yeni sabahın bir nemət, bir imkan olduğunu vurğulayır. Şükür özü bir enerjidir. Bir nemətdir. Şükür edə bilmək insana Allah tərəfindən edilmiş lütfdür. Bütün gözəlliklər Allahdan gəldiyi üçün gözəldir, sevilməyə layiqdir. Amma dünya gözəlliklərinə aldanmaq olmaz, bu məcazi eşq gerçək eşq üçün məşq sayılır. Həqiqi aşiq bütün gözəlliklərin Allahdan gəldiyini anlayır və əbədiyə eşq bəsləyir [2]. Lakin insan unutqandır. Bəzən Yaradanına naşükürlük edir.

*"Biz ayrı düşmüşük Ulu Tanrıdan,*
*Gəlin, cəza kimi anlayaq bunu.*
*Vədin öz yerində... Ancaq heç zaman*
*İnsan unutmasın Allah borcunu"* [3, s.183].

Bu şeirdə insanın Tanrıdan ayrı düşməsini iki cür başa düşmək olar. Birinci mənada Hz.Adəmin cənnətdən qovulması ilə bəni-adəmin dünyada məskunlaşması, ikinci mənada isə insanın pis əməllərinə görə Allah tərəfindən cəzalandırılıb ayrı salınması. İnsanın Allaha olan borcu ifadəsi şairimizin poeziyasında tez-tez rast gəlinən ifadədir. Bəxtiyar müəllim Allah qarşısında borc ödəməyi dünyada ən savab əməl sayır. Şeirlərində Yaradanın insanlara bəxş etdiyi nemətləri göstərərək insanların bu lütfkarlıq qarşısında layiqli ibadət etmədiklərini və buna görə də bəlalara düçar olmasını diqqətə gətirir. Bəxtiyar Vahabzadənin bu tipli şeirlərində bir qlobal hüzn, narahatlıq duyulur. Bu özü eksiztensial psixoloji durumdan yox, bəşəriyyətin taleyini, insanlığı düşünməkdən irəli gəlir. Şair öz dərdini cəmiyyətin, millətin, vətənin və dünyanın dərdinin tərkibində ifadə edir.

Bəxtiyar Vahabzadənin poeziyasında insanın ziddiyyətli yönlərinin bədii təqdimini də görmək mümkündür:

*"Dünyanı aşan, eşq ilə kamilləşən insan*
*Dünya malının adi quluymuş, nə biləydim?*
*Alçaqsa da insan bu qədər qəsd-qərəzində,*
*Eşqində böyükmüş və uluymuş, nə biləydim?"* [5, s.524].

Dünyanı aşmaq və eşqin yollarında kamilləşmək həm şairimizin, həm də klassiklərimizin yaradıcılığında çox rast gəlinən anlayışdır. Təbii olaraq onu qeyd etmək lazımdır ki, sözügedən motiv ilk növbədə İslam dininin prinsiplərində təzahür edir və bədii sahədə orta əsrlərdə əsasən təsəvvüf ədəbiyyatında özünü göstərir. Dünyanı aşmaq nəfsi aşmaqdır, nəfs insanı mənəvi dəyərlərdən uzaqlaşdıran, bataqlığa sürükləyən amansız və təhlükəli qüvvədir. Təsəvvüfçülər nəfsi yeddi qismə, mərtəbəyə ayırırlar, bunlar əmmarə, ləvvamə, mülhimə, mutmainnə, raziyyə, mərziyyə, kamilədir. [8] Nəfsinə qalib gəlməyən insan kamilləşə bilməz. Bu baxımdan kamilləşmə yolunda nəfs ən böyük əngəllərdəndir. Bəxtiyar müəllim bu şeirində insanı mənfi və müsbət cəhətləri ilə təqdim edərək onun qısa portretini göstərir. Şair bəşər övladındakı bu ikili mahiyyət vasitəsilə həm insanı tənqid edib naqis cəhətlərini ortaya qoyur, həm də onda ülvi keyfiyyətlərin cəmləşdiyini deyir. İnsan öz içində bu ikiliklə mübarizədədir, onun axirət dünyasında hansı mərtəbədə olması bu mübarizədə hansı tərəfə meyil etməsindən asılıdır. Bu ikili mahiyyətə sahib insanın zaman-zaman dünya malına, faniliyə meyil etməsi şairi narahat edir. Lakin bu əməllər insanı alçaltsa da, kompleks yanaşsaq, insan obrazı aşiqlik bacarığına görə yüksək mahiyyət kəsb edir. Adəm övladındakı bu ikiliyi Bəxtiyar müəllim bu cür izah edir. Şairimiz insandakı ikiqütblü mübarizəni özündə də hiss etmiş, hər bir insan kimi özü də nəfsi ilə mübarizədə olmuşdur:

*"Gördüm ki, özümlə savaşdayam mən*
*İçimdə nəfs adlı qurd yeyir məni"* [6, s.252].

Şeirlərinə nəzər yetirəndə aydın olur ki, həqiqətən də şairi maraqlandıran, narahat edən tək bir insanın yox, insanlığın problemləridir. Bu baxımdan onun poeziyası qlobal xarakterlidir. Bu tipli şeirlərində insan anlayışı milliyyəti ilə, irqi ilə yox, bütövlükdə, kompleks şəkildə diqqətə alınır. Digər tərəfdən, Bəxtiyar müəllimin bu şeirini ziddiyyətlər üzərində qurması onun yaradıcılıq texnikası ilə insan xislətinin mozaikasını qurmağı kimi də qəbul oluna bilər. İnamın yəqinliyə çatması, imanın kamilləşməsi müsəlman üçün olduqca əhəmiyyətlidir. İmanını kamilləşdirmək üçün çalışması poeziyasından bəlli olan şairimiz dərd-qəmi, ahı bu fövqəltəbii prosesə aparan yol kimi təqdim edir:

*"Ucaldıb könül ahımı*
*Tanımışam Allahımı.*
*Allah bizə pənah olmuş*
*Ah Allaha gedən yolmuş*" [6, s.451].

Dərdin, ahın mənəvi təkamül yolunun bələdçisi olması, insanı kamilləşdirməsi motivi bizlərə klassik ədəbiyyatımızdan tanışdır. İstər klassik poeziyada, istərsə də müstəqillik dövründə dərd-qəm motivi sənətkarların tez-tez müraciət etdikləri motivdir. Lakin bu iki zaman dilimi üzərindən yanaşsaq həmin motivin dövrlər üzrə təzahürü fərqli mahiyyət də kəsb edir. Divan ədəbiyyatında sanki dərdin səbəb olduğu ah göylərə yüksəldikcə insanın kamillik mərtəbəsi də yüksəlir. Ona görə Nəsimi, Füzuli və digər mütəfəkkirlərimiz yaradıcılıqları boyu dərd diləmiş, dərmandan imtina edərək şəfanı dərddə tapmışlar. Bu motivlərin Bəxtiyar Vahabzadə yaradıcılığında yer alması heç də təsadüfi deyil. Bu ilk növbədə şairimizin daxilində gedən mənəvi mübarizədən, həqiqət axtarışından qaynaqlanır.

*"Açdım əllərimi "Ya Allah", - deyə,*
*Bir dəm ürəyimdən dərd əskilməyə.*
*Sevincə, şadlığa, deyib-gülməyə*
*Yaradıb Allahım naməhrəm məni"* [5, s.549].

Bu misraların ruhunda Bəxtiyar müəllimin təbiətində olan bir məcnunluq üzə çıxır. O, da Füzulinin mənəvi qəhrəmanı Məcnun kimi əllərini açıb dərd-bəla arzu edir. Çünki dərdə mənəvi yüksəlişin vasitəsi kimi baxır. Sadəcə bu detal belə Bəxtiyar Vahabzadənin ustad Füzuli ilə poetik-mənəvi bağlılığının, digər tərəfdən ruhani fitrətə sahib olduğunun göstəricisidir.

Doğulduğu, böyüdüyü, şair olduğu mühit, yaşadığı dövrün sosial-siyasi xarakteri, ətrafda gedən proseslər Bəxtiyar Vahabzadənin düşüncələrinə, görüşlərinə təsir etmişdir. Poeziyasında şair heç vaxt məhəlli planda fikir yürütməmiş, fərdi imtiyaz dərdində olmamışdır. Əsərlərində insanlığın gur səsli müdafiəçisi kimi çıxış etmişdir. Bəşər övladını tənqid etməsi, onun çatışmayan cəhətlərini göstərməsi də özlüyündə insana sevgi və ona hörmətdir. Müstəqillik dövründən əvvəlki yaradıcılığında da bu tendensiyalar aparıcı idi. Sovet dövründəki yaradıcılığında, o, orta əsrlərdə yazıb-yaratmış sənətkarlarımızın əsərlərini və zəngin irslərini araşdırıb, bu istiqamətdən təsəvvüf, sufizm, hürufizm haqqında mülahizələr irəli sürür və müxtəlif dünyagörüşü sistemlərini tədqiq edərək öz oriyentasiyasını müəyyən etməyə çalışırdı. Müstəqillik dövründəki poeziyasında, din-irfanla bağlı görüşlərinə fərqli mahiyyət qazandırmış və axtarışlarını nəticələndirmək yolunda irəliyə doğru ciddi addımlar atmışdır. Bəxtiyar müəllimin müstəqillik dövrü poeziyasında xalq ruhu aparıcıdır. Ən müsbət məqamlardan biri də odur ki, dini motivlər milli ruhla vəhdətdə təqdim oluna bilir. Onlar arasında hər hansı bir sədd görünmür. Bu həm də şairin İslam dininə yanaşmasından irəli gəlirdi. Şair özü birbaşa milli mənəviyyatın təmsilçisi olduğu üçün onun dini-irfani görüşləri də

xalq ruhundan qaynaqlanır. Xüsusilə müstəqillik illərindəki şeirlərində Allaha tez-tez yalvarış edən sənətkar həmin əsərləri milli koloritlə təqdim edir. 90-cı illərin əvvəllərində kritik fazaya çatan Qarabağ probleminin yaratdığı travmaları, xalqımızın üzləşdiyi bəlaları bir tərəfdən müxtəlif siyasi-ictimai səbəblərlə ələqələndirsə də digər tərəfdən insanların Yaradanın yolundan uzaqlaşmasını da əsas götürür. Və yenə də pənahı Allah dərgahına üz tutmaqda tapır. İnsanların özünə dönməsi, haradan gəldiyini və hara qayıdacağını xatırlaması vacibdir. Bəşəriyyəti, insanlığı ancaq Allahı xatırlamaq, ona ibadət etmək xilas edər:

*“Ucal o yüksəkliyə*
*Allah deyə, haqq deyə.*
*Tapındığın gerçəyə*
*Sən səcdə qılmaqla gəl”* [6, s.439].

İnsan bu fani dünyada durduğu mövqedən yüksəliş üçün Rəbbini unutmamalı, daim Haqqa tapınmalı, Ona sığınmalıdır. Bu çağırış Bəxtiyar Vahabzadə yaradıcılığının, o cümlədən poeziyasının əsas spesifik xüsusiyyətlərindəndir. Fikrimizcə, o, müstəqillik dövründəki yaradıcılığında bu çağırışlara daha çox yer vermişdir. Həmin istiqamət şairin xarakterini bildirməklə onun ülvi amalının ən yüksək tonda proyeksiyasını təşkil edir. Bu baxımdan rahatlıqla qeyd edə bilərik ki, Bəxtiyar müəllim istiqlal şairi olmaqla yanaşı, həm də din-irfan şairidir. Bəxtiyar Vahabzadənin poeziyası onun həyat yolunun bədii əksidir. Şairimizin ömür cizgiləri onun şeiriyyatında aydın şəkildə təzahür edir. Ömrünün çətin dönəmlərində Yaradana üz tutan istiqlal şairimiz bu tendensiyanı əsərlərində də nümayiş etdirir. Bəxtiyar Vahabzadə şeiriyyatla yaşayan, adını şeirləri ilə yaşadan ustad sənətkarımızdır. Lakin onun dünyayabaxışı, düşüncələri birdən-birə formalaşmamış, zamanla təkmilləşmişdir.

*“Boşalıram, dolmuram*
*Çaşdırmışam sağ-solu.*
*Axtarıram bulmuram*
*Allaha gedən yolu”* [5, s.642].

“Yuxuluyam, yuxulu” şeirindən gətirdiyimiz nümunə din motivli işarələrlə zəngindir. Allaha gedən yolu axtaran lirik qəhrəman həyat yolunda istiqamətini müəyyən etməkdə çətinlik çəkən, mənəvi oriyentasiyasını bulmaq yolunda psixi gərginlikdə olan, axtarışda itib-batan insandır. Haqq yoluna varmaq istəyən insanı şeytan azdırmağa çalışır. Bəxtiyar Vahabzadə göstərir ki, bu yolda insan özü-özünə qənimdir. Düşməni yenə öz içindədir, yəni nəfs. Bu düşmən müxtəlif yollarla insanın Haqq yoluna varmasının qarşısını almağa çalışır [5]. Şeirin adı da əslində bizləri istiqamətləndirir. “Yuxuluyam, yuxulu” dedikdə şair cismani-bioloji yuxudan yox, qəflət yuxusundan söz açır. Şeirin məzmunu bu ideyanı tamamlayır.

Bəxtiyar Vahabzadə Haqq yolunu tapmaq, Uca Allahın dinini başa düşmək üçün çıxdığı yolda vardığı nəticəni poetik dili ilə belə ifadə edir.

*“Könül çox axtardı qibləgahını*
*Axır səndə tapdı öz pənahını.*
*Ötən illərimin min günahını*
*Çılğın gəncliyimə əfv elə, Rəbbim”* [6, s.405].

Nümunədən məlum olduğu kimi, Bəxtiyar müəllim özü də İlahi eşq yolunda çox axtarışda oluğunu, bu yollarda hər insan kimi səhvlərə də yol verdiyini etiraf edir. Məlum həqiqətin bu dərəcədə səmimi çalarlarla ifadəsi onun poeziyasına əlavə özünəməxsusluq qazandırır.

Bəxtiyar Vahabzadənin yaradıcılığında ən vacib ünsür olan eşqin diapazonu çox böyükdür. Çünki eşqin özü – İlahi eşq bütün eşqlərin əsasdır. Eşq onun üçün kamilləşmək, ucalmaq yoludur. Təsəvvüf, İlahi eşqlə bağlı fikirlər, düşüncələr şairimizin istər nəzm, istərsə də nəsrlə yazılmış əsərlərində özünü göstərir. Eşqin mənəvi gücü Bəxtiyar müəllimi hər zaman dərinliyə çəkmiş, onun düşüncəsini fani dünyadan ayırmışdır. Sovet dönəmindəki yaradıcılığından başlayan bu ənənə müstəqillik qazandığımız dövrdən bəri şairimizin əsərlərində daha güclü formada ifadə olunmuşdur. Təsəvvüfə, mənəvi yüksəlişə şairimizin Allaha məhəbbəti fonunda müraciət olunur. Bir məqama da diqqət yetirmək lazımdır ki, Bəxtiyar Vahabzadənin təsəvvüfə, təsəvvüf ədəbiyyatına yanaşması birmənalı deyildi. Bu münasibət uzun zaman ərzində təkamül yolu keçmişdir. İlkin vaxtlarda sufi şairlərin yaradıcılığı fonunda təsəvvüfü dünyayla əlaqəsi olmayan, xəyali bir anlayış kimi görən şair, zaman keçdikcə təsəvvüflə də daha dərindən maraqlanmağa başlamış, hətta bəzi yazılarında İslam dinini təsəvvüf örnəyi ilə müdafiə etməyə çalışmışdır. Müstəqilliyin bəxş etdiyi imkanlardan maksimum yararlanmağa çalışan cəmiyyət xüsusilə 90-cı illərdə fikir sahəsində müəyyən boşluqlar da verirdi. Cəmiyyətdə gedən proseslərə ayıq münasibət bəsləyən və lazımi reaksiyalar verən Bəxtiyar müəllim ölkəyə gətirilən müxtəlif təlimlərə qarşı İslam dininin prinsipləri və üstünlüklərini xatırladır. Təsəvvüfün Allahı idrak anlayışını irəli çəkir və insanları həqiqəti başqa yerdə, başqa inanclarda axtarmamağa çağırır. O, qeyd edir ki, təsəvvüfə görə Allahı idrak özünü idrakdan başlayır [7].

İdrak, Bəxtiyar müəllim üçün özünüdərkin açarıdır. Lakin dar mənada düşünüldükdə Həqiqəti duymaq, ona varmaq üçün o da yetərli olmur. Əql və nəql prizmasından yanaşdıqda vurğulamaq yerinə düşər ki, təsəvvüf aləmində əql kamilləşmə yolunda əhəmiyyətli olsa da həqiqətə çatmaq, kamilləşmək üçün kifayət deyil. Çünki insan zəkası hər şeyi dərk etmək iqtidarında deyil. Hikmətlər insandan əqldən üstün bir bilginlik halı tələb edir. Bu bilginliyə çatmaq üçün də insan özünü bilməli, yaradılışındakı mənanı duymalı və buna uyğun addımlar atmalıdır:

*“Könlümlə duymuşam nəyi duydumsa dünyada*
*İdrak edir, fəqət nə edək, ağlın odu yox.*
*Könlümdür üzdürən məni ruhani dünyada*
*Ağlın hüdudu var isə, könlün hüdudu yox”* [5, s.69].

Bu məsələni poetik dillə ifadə edən şair könül və ağılı qarşılaşdıraraq, eşq yolunda könülü daha üstün sayır. Ruhani dünyanın açarı könüldədir. Könüllə müqayisədə ağıl sərhədlidir, o insanı müəyyən bir nöqtəyə qədər apara bilər. Digər maraqlı cəhət Bəxtiyar müəllimin özünü ruhani dünyaya bağlı hesab etməsi, bunu açıq dilə gətirməsidir. Onun müstəqillik illərində qələmə aldığı bir çox şeirlərində sufiyanəlik nəzərə çarpır. Bəxtiyar Vahabzadəni Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrindən biri edən və onu digər şairlərdən, yazarlardan fərqləndirən bir çox cəhət vardır. Lakin Bəxtiyar yaradıcılığının mənəvi tərəfi, onun sufizmə, təsəvvüfə, insanda olan Allah sevgisinin tərənnümünə həsr etdiyi əsərləri tədqiqatımız baxımından daha diqqətçəkəndir. Bir tərəfdən istiqlalımızın, milli məfkurəmizin ədəbi sferada sarsılmaz ifadəçisi olan Bəxtiyar müəllim, digər tərəfdən özünü Allah dərgahına hazırlayan, vüsal atəşi ilə qovrulan ruhani şairdir.

*“Yoxluq nə imiş? Öz mənini var kimi sanmaq,*
*Varlıqları yoxdan var edən Allahı danmaq.*
*Varlıq nə imiş? Mütləqə qəlbinlə vurulmaq,*
*Eşqində var olmaq üçün Allahda yox olmaq”* [5, s.68].

Varlıq və yoxluq dilemması əsrlər boyu mütəfəkkirləri və fikir adamlarını məşğul etmiş məsələdir. Bir çox alim bu məsələni müxtəlif aspektlərdən şərh etməyə çalışmışlar. Ustad Bəxtiyar da yoxluğa və varlığa öz pəncərəsindən baxmış, ona duyğular və inancı baxımından tərif vermişdir. Öz mənliyini var sanıb qürrələnmək, Yaradanın qüdrətini və əzəmətini unutmaq yoxluqdur. Bu, mənəviyyatdan uzaq nəfsani həyatdır. Varlıq isə bütün qəlbin Yaradanın nuru ilə dolmasıdır. Öz mənliyini heç saymaq, hər yerdə Allahın qüdrət dəlillərini görməkdir. Eşq bunu gərəkdirir. Bəxtiyar Vahabzadə də Allaha sevgisində özünü kamilləşdirməyə çalışmışdır. İnsanın ən ümdə vəzifəsi Yaradanını sevməkdir. Əsərlərindən görünür ki, o da bu sevginin daşıyıcısıdır. Poetik irsində daim Allahı xatırlayan və xatırladan şair, bu yolla bir növ ibadət edir. Onun əsrlər boyu müsəlman Şərqi üçün qənaət öndəri olan klassiklərin yaradıcılığına müraciəti, bu və ya digər dərəcədə onlardan bəhrələnməsi də diqqətə alınmalıdır. Çünki onların düşüncə sistemləri, inancları şairimiz tərəfindən maraqla qarşılanmış və araşdırmaya cəlb edilmişdir. Nəsimi, Füzuli, Yunus İmrə, Cəlaləddin Rumi və s. bu qəbildəndirlər. “Cəlaləddin Mövlanaya bənzətmələr” başlıqlı şeiri bu baxımdan əhəmiyyətlidir.

*“Qul azad olanda şad olmalıdır*
*Qulun olduğuma mən şadam, Allah”* [5, s.266].

Şairimizin poeziyasının təməlində dayanan Allaha bağlılıq anlayışı bu misralarda da ön plandadır. Məntiqi təzaddan istifadə edərək, Yaradanın qulu olması ilə fəxarət hissi duyduğunu göstərən Bəxtiyar müəllim bir daha mənəvi dünyadakı mövqeyini ortaya qoymuş olur. Yaradıcılığı boyu Ondan gəlib Ona gedən yolda insanın mənəvi statusunu göstərən şair özünü də bu yollarda axtarışa çıxan salik kimi görür.

## Nəticə / *Conclusion*

Araşdırmamız nəticəsində Bəxtiyar Vahabzadə yaradıcılığının dini-irfani qatlarına nəzər yetirib onun poeziyasında insanın Allaha sevgisinin təzahürlərini, şeirinin dini xarakteristikasını müəyyən etdik. Göstərdik ki, Bəxtiyar müəllim həyatının bütün dönəmlərində axtarışlarda olmuş, yaradılışın mənasını, bəşər övladının bu dünyadakı vəzifəsini düşünmüş və müəyyən qənaətlərə gəlmişdir. Həm sovet dövrü, həm də müstəqillik illərindəki yaradıcılığı üçün xas olan bu axtarışlar ikinci dövrdə daha intensiv olmuş və şairimiz bu istiqamətdə düşüncələrini daha ətraflı ifadə etmişdir. Bəxtiyar Vahabzadə yaradıcılığında dini motivlərə çox yer ayırmışdır. Həyatını şeirlərinə proyeksiya edən şair nə zaman dara düşsə nicat yolunu Allaha yalvarışda tapır. Müəyyənləşdirdik ki, Bəxtiyar Vahabzadə əsərlərində nəfsə savaş açmış, onun bəşəriyyətə vurduğu ziyanları ortaya qoymuşdur. Bəxtiyar müəllimin poeziyasında digər mühüm cəhət insanı mühakimə etməkdir. İnsandakı ikiqütblü xarakter, daxildə iki qüvvə arasında gedən savaş şairimizin əsərlərində tez-tez rast gəlinən motivdir. Klassiklərimiz kimi, o da dərd arzulayaraq imanını kamilləşdirməyə çalışır. Bu baxımdan, daha çox Füzuli ilə yaxınlaşır. İnsanın daxili təkamülü fonunda mənəvi statusu və bundan irəli gələn missiyasının açılması Bəxtiyar müəllimin ədəbi irsinin əsas yönlərindən birini təşkil edir.

## Ədəbiyyat / *References*

1. Əsgərli, Ə. Bəxtiyar Vahabzadə. Həyatı, mühiti və yaradıcılığı. – Bakı: Elm və təhsil, – 2022, – 556 s.
2. Məmməd, T. Neosufizm: yaradıcılıq və nəzəriyyə. – Bakı: Xan, – 2016, – 120 s.
3. Vahabzadə, B. Seçilmiş əsərləri. XII clddə: I cild. – Bakı: Elm, – 2008, – 612 s.

4. Vahabzadə, B. Seçilmiş əsərləri. XII cilddə: V cild. – Bakı: Elm, – 2008, – 584 s.
5. Vahabzadə, B. Seçilmiş əsərləri. XII cilddə: VI cild. – Bakı: Elm, – 2008, – 738 s.
6. Vahabzadə, B. Seçilmiş əsərləri. XII cilddə: VII cild. – Bakı: Elm, – 2008, – 463 s.
7. Vahabzadə, B. Seçilmiş əsərləri. XII cilddə: XI cild. – Bakı: Elm, – 2009, – 738 s.
8. https://islamansiklopedisi.org.tr/nefis
9. https://quran.az/16/53?t=2
10. https://quran.az/6/59?t=2
11. https://quran.az/99/7?t=2
12. https://quran.az/99/8?t=2

## Религиозные и духовные идеи и элементы единства бытия в поэзии Бахтияра Вахабзаде

**Сезер Мамедли**
Институт литературы имени Низами Гянджеви НАНА, докторант
E-mail: sezarmammadli@gmail.com

**Резюме.** Бахтияр Вахабзаде, одна из самых выдающихся фигур в истории азербайджанской литературы, а также общественной мысли, на протяжении всего своего творчества придавал большое значение понятиям самосознания и духовного роста. Упомянутые вопросы выступали в качестве основного направления в поэзии великого поэта наряду с ценностями независимости и национальной самобытности. Цель этой статьи — изучить суть самосознания в поэзии поэта-мастера, важность духовного совершенствования через призму горизонтов мысли учителя Бахтияра. Поиск путей самосознания наблюдается на протяжении всего творчества поэта. Особенно ярко эта тенденция проявляется в поэзии периода независимости. Лирические герои в своих произведениях постоянно находятся в поиске прогресса, истины на пути самопознания. В статье показаны его взгляды на религию, суфизм и концепцию единства бытия на фоне перипетий поэта и духовной эволюции его лирического героя. Критический и двойной характер человека также является важным вопросом в творчестве Бахтияра Вахабзаде. Человек, обманутый миром смертных и ставший рабом своей слабости, подвергается суровому осуждению. С другой стороны, благодаря божественной любви человек также может сосредоточиться на духовном мире. Представление человеческих черт в этом противостоянии формирует основное направление взглядов мастера-поэта на род человеческий. Элементы суфизма и единства бытия отчетливо видны в религиозных воззрениях Бахтияра Вахабзаде как в глубинном слое, так и в целом. Его идеи о бытии и небытии являются ценным выражением идеи единства бытия в его поэтическом наследии с метафизической точки зрения.
**Ключевые слова:** Бахтияр Вахабазде, единство существования, религия, тасаввуф, суфизм, поэзия